# Şabranda "Heydər Əliyev İli" mövzusunda tədbir

**Xaçmaz Regional Mədəniyyət İdarəsinin Şabran rayonundakı Mədəniyyət mərkəzində "Ümummili lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin və milli mənəvi dəyərlərimizin inkişafında rolu" adlı konfrans keçirilib. Mərkəzin direktoru Şəfiqə Məmmədovanın verdiyi məlumatda bildirilir ki, bu tədbir Prezident İlham Əliyevin ötən il sentytarın 29-da imzaladığı sərəncamla elan edilmiş "Heydər Əliyev İli" çərçivəsində təşkil olunub. Konfrans iştirakçıları tədbirdən əvvəl ümummili liderin rayon mərkəzindəki abidəsi önünə gül dəstələri qoyublar.**



Sonra Heydər Əliyevin müxtəlif dövrlərdə Şabran rayonunda olmasını özündə əks etdirən fotolardan və kitablardan ibarət sərgiyə baxış keçirilib. Dövlət himninin səsləndirilməsi ilə başlanan konfransın açılışında ulu öndərin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx izlənilib.

Konfransda Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, pedaqogika üzrə elmlər doktoru Mübariz Əmirovun "Ümummilli lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində rolu", AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk Xalqları Ədəbiyyatı şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor Məhəmməd Əliyevin "Elm, təhsil və mədəniyyətimizin inkişafında Heydər Əliyevin rolu", Əməkdar jurnalist, Əməkdar incəsənət xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-publisist, uzun illər Azərbaycan Televiziyasının ədəbi dram verilişləri baş redaksiyasının baş redaktoru işləmiş, Heydər Əliyevə həsr olunmuş 22 sənədli filmin ssenari müəllifi olan Sadıq Elcanlının "Heydər Əliyev və Azərbaycan Televiziyası", Heydər Əliyev Mərkəzinin direktoru Təvəkkül Əliyevin "Heydər Əliyevin mədəni irsimizin inkişafındakı rolu", "Şabran" qəzetinin redaktoru Çingiz Məmmədovun "Heydər Əliyev və mətbuatımız", Azərbaycan Yazıçılar Birliyi Şabran bölməsinin (Xızı – Siyəzən) sədri Aydın Tağıyevin "Heydər Əliyevin ədəbiyyatımızın inkişafında rolu" mövzusunda məruzələri dinlənilib.

Sonda Xaqani adına Poeziya evinin müdiri Aybəniz Əlyar ümummili lider Heydər Əliyevin 100 illiyinə həsr etdiyi "Əbədilik qazananlar" adlı şeirini səsləndirib və qonaqlarla birlikdə xatirə şəkli çəkdirilib.

**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2023.- 5 fevral.- S.5.